**Kazus**

*Faktlar* – Terrorizm haqqında 2000-ci il tarixli Qanunun 44-47-ci maddələrinə əsasən, yüksək rütbəli polis əməkdaşları "terror aktlarının qarşısını almaq üçün məqsədəuyğun hesab etdikdə", müəyyən coğrafi ərazidə istənilən polis əməkdaşı tərəfindən piyadaların üzərində, nəqliyyat vasitələrinin içərisində və nəqliyyat vasitələrindəki sərnişinlərin üzərində axtarış aparılmasına icazə verə bilərdilər. İcazə 48 saat ərzində daxili işlər naziri tərəfindən təsdiq edilməli idi, əks halda qüvvəsini itirirdi. İcazənin müddəti iyirmi səkkiz gündən artıq ola bilməzdi, amma bu müddət uzadıla bilərdi. İcazədən irəli gələn səlahiyyətlər yalnız "terrorizmlə əlaqədar istifadə edilə bilən əşyaların" aşkar edilməsi məqsədləri üçün tətbiq edilə bilərdi, lakin şəxsin üzərində axtarış aparmaq üçün polis əməkdaşının həmin şəxsdə "bu cür əşyaların olmasından şübhələnmək" üçün əsaslara malik olması tələb olunmurdu. Polis əməkdaşı üzərində axtarış apardığı şəxsdən papağını, üst geyimini və əlcəklərini çıxarmasını tələb edə və əsaslı zərurət olduqda əlini onun daxili ciblərinə sala, köynəyinin boynunun daxili hissəsini, corablarını, ayaqqabılarının içərisini və saçlarını yoxlaya bilərdi. Axtarışlar şəxsin dayandırıldığı yerdə və ya həmin yerin yaxınlığında açıq məkanda aparılırdı. Axtarışa etiraz etmək azadlıqdan məhrumetmə ilə, cərimə ilə və ya bunların hər ikisi ilə cəzalandırılan cinayət əməli sayılırdı. Qanunun icrasına nəzarət edən müstəqil müşahidəçinin məruzəsi ən azı ildə bir dəfə parlamentə təqdim olunurdu.
2001-ci ildə müvafiq qanunvericilik qüvvəyə mindikdən sonra şəxsin dayandırılması və üzərində axtarış aparılması səlahiyyəti paytaxt ərazisində xidmət edən polislərə verilir və "yeniləmə proqramına" uyğun olaraq axtarış icazələri mütəmadi olaraq yenilənir və təsdiq edilirdi. Ədliyyə Nazirliyinin məlumatlarına əsasən, il ərzində aparılmış axtarışların sayı 2004-2008-ci illərdə durmadan artaraq 33.177-dən 117.278-ə çatmışdı. Son məruzələrində müstəqil müşahidəçi bu səlahiyyətlərin tətbiq edilmə tərzini getdikcə daha çox tənqid edərək onların "qeyri-qənaətbəxş şəkildə və ya zərurət olmadan" tətbiq edildiyini qeyd edir və "mühüm məkanlarla" məhdudlaşan icazələrdən fərqli olaraq paytaxt polisinin xidmət etdiyi bütün ərazini əhatə edən icazələrin uzadılmasının zəruriliyini şübhə altına alırdı.
Hazırkı işdə ərizəçilər yaxınlıqda keçirilən silah yarmarkasına qarşı etiraz nümayişinə yollandıqları zaman polis tərəfindən ayrı-ayrılıqda saxlanılaraq axtarışa məruz qalmışdılar. Cənab G. velosipedlə hərəkət edirdi və belində asma çanta vardı. Jurnalist olan xanım K. jurnalist vəsiqələrini təqdim etdiyinə baxmayaraq dayandırıldı və üzərində axtarış aparıldı. Hər iki ərizəçi 30 dəqiqədən artıq olmayan müddət ərzində saxlanıldılar.
Bu müddət ərzində ərizəçilərə olduqları yerdə dayanmaq və axtarışa itaət etmək tələb edilmiş və imtina etdikləri təqdirdə onlara həbs, polis məntəqəsində saxlama və cinayət məsuliyyəti ilə üzləşməli olacaqları bildirilmişdir.
Sonradan ərizəçilər bu hərəkətin qanuniliyinə məhkəmə tərəfindən baxılması üçün müraciət etdilər, amma cəhdləri uğursuz oldu.

Sizcə, ərizəçilər 5-ci maddə üzrə pozuntunun qurbanı olduqlarını iddia edə bilərlərmi?

<u>Gillan və Quinton Birləşmiş Krallığa qarşı iş</u>

*Hazırladı: Günel Sevdimalıyeva*